# AZƏRBAYCAN RESPUBLİKASI ƏMƏK VƏ ƏHALİNİN

# SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN

# TABELİYİNDƏ DÖVLƏT MƏŞĞULLUQ AGENTLİYİ İLƏ UNİTED AİD FOR AZERBAİJAN (UAFA) TƏŞKİLATI

# ARASINDA ƏMƏKDAŞLIQ HAQQINDA MEMORANDUM

**Bakı şəhəri** "26" Yanvar **2021-ci il**

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi (bundan sonra – Agentlik) və United Aid For Azerbaijan (UAFA) təşkilatı *(bundan sonra - Təşkilat)* məşğulluq sahəsində əməkdaşlıq əlaqələrinin qurulması məqsədi ilə aşağıdakılar barədə razılaşdılar:

**Maddə 1**

Tərəflər aşağıdakı istiqamətlərdə əməkdaşlıq edirlər:

- işaxtaran və işsiz şəxslərin, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi;
- işaxtaran və işsiz şəxslərin işaxtarışına və özünüməşğulluğuna kömək göstərilməsi;
- əmək bazarının tələblərinə uyğun işsiz və işaxtaran şəxslərin peşəyönümünün, peşə hazırlığının təmin edilməsi, bilik və bacarıqlarının artırılması.

**Maddə 2**

Tərəflər arasında əməkdaşlıq aşağıdakı formalarda həyata keçirilir:

- işaxtaran və işsiz şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi məqsədi ilə ölkənin ayrı-ayrı regionlarında mövcud olan əmək bazarının tələblərinə uyğun aktiv məşğulluq tədbirlərinin təşkili ilə bağlı təkliflərin Təşkilat tərəfindən Agentliyə təqdim edilməsi;
- Təşkilat tərəfindən təqdim olunan təkliflərin müzakirə edilməsi məqsədi ilə Agentliyin və Təşkilatın səlahiyyətli nümayəndələri arasında işgüzar görüşlərin keçirilməsi;
- sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün əlavə iş yerləri və sosial müəssisələr yaradılmasına marağın artırılması üçün Agentlik tərəfindən müxtəlif xarakterli həvəsləndirici (təşviqedici) tədbirlərin, o cümlədən proqram və layihələrin həyata keçirilməsi;
- Agentlik tərəfindən aktiv məşğulluq tədbirlərinə cəlb olunan şəxslər barədə məlumatların Təşkilata təqdim edilməsi;

- Agentlik tərəfindən müvafiq aktiv məşğulluq tədbirlərinə cəlb olunan şəxslərin fəaliyyətinin dəstəklənməsi və inkişaf etdirilməsi məqsədi ilə Təşkilat tərəfindən maarifləndirmə, təbliğat işlərinin, o cümlədən, əlavə dəstəyin həyata keçirilməsi;

- Agentlik tərəfindən peşə hazırlığına cəlb olunan şəxslərin müvafiq işlə təmin olunmasına Təşkilat tərəfindən köməklik göstərilməsi;

- peşə hazırlığına cəlb olunan şəxslərin bilik və bacarıqlarının artırılması məqsədi ilə onların iş yerlərində istehsalat təcrübəsi keçmələri üçün Təşkilat tərəfindən zəruri köməkliyin göstərilməsi

**Maddə 3**

Bu Memorandumun icrasının əlaqələndirilməsinə və nəzarət işlərinə cavabdeh qurumlar (şəxslər) aşağıdakılardır:

- Agentlik tərəfindən – Agentliyin Aparatının Beynəlxalq əlaqələr və layihələrlə iş departamenti;

- Təşkilat tərəfindən - Təşkilatın Əməliyyatlar departamenti

**Maddə 4**

Bu Memorandum çərçivəsində Tərəflər arasında yazışmalar yazılı (sənəd mübadiləsi) və/və ya elektron formada (email vasitəsilə) həyata keçirilir.

Bu Memoranduma Tərəflərin qarşılıqlı razılığı ilə onun ayrılmaz tərkib hissəsi olan ayrıca protokollar formasında rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

**Maddə 5**

Bu Memorandum imzalandığı gündən qüvvəyə minir və 3 il müddətində qüvvədədir.

Memorandumun ləğv edilməsi belə ləğvetmədən əvvəl ona əsasən başlanılmış layihələrin və ya proqramların həyata keçirilməsinə təsir etmir

Bu Memorandum Bakı şəhərində 26 Yanvar 2021 tarixində, hər biri Azərbaycan dilində eyni hüquqi qüvvəyə malik olan iki nüsxədə tərtib edilmiş və imzalanmışdır.

| | |
|---|---|
| **Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri** | **United Aid For Azerbaijan (UAFA) təşkilatının direktoru** |
| M.Y | M.Y |
| **M.A.Abbasbəyli** | **Qvendolin Börçell** |